# IRAVAN, THE ANCIENT CITY OF AZERBAIJAN

**Nazim Mustafa**

PhD in history, laureate of the State Prize,
Department head of the Presidential Library
E-mail: nazimmustafa@mail.ru
https://orcid.org/0000-0002-5964-8886

**Abstract**. In the article, referring to sources and research works, it is justified that the ancient city of Iravan has nothing to do with Armenians. The city of Iravan occupied a unique place among Azerbaijani cities not only with its historical and architectural monuments but also as a center of science and culture. The names of hundreds of science, culture, art and religious figures who were born and raised in the city of Iravan are engraved in the history of Azerbaijan. Scholars, chroniclers, and researchers who visited Iravan at different times described the city of Iravan as a developed center of science and culture in the East. The article highlights the fact that the Armenians gradually erased the traces of material and cultural samples belonging to the Azerbaijanis, which were abandoned in Iravan for hundreds of years, and the transformation of the city of Iravan into a mono-ethnic Armenian city.

**Keywords:** Iravan, Erivan, Erebuni, Irpuni, Yerevan, Armenia, Urartu, Zengi, Khan's palace, mosques, caravansary.

**To cite this article:** Mustafa N. (2022). Iravan, the ancient city of Azerbaijan. *Journal of Preschool and Primary Education*, Special issue – Iravan Teachers' Seminary, 2 (2022). pp. 9-29.
**Article history:** received – 05.05.2022; accepted –17.06.2022

# QƏDİM AZƏRBAYCAN ŞƏHƏRİ İRƏVAN

**Nazim Mustafa**

Tarix üzrə fəlsəfə doktoru, Dövlət mükafatı laureatı,
Prezident Kitabxanasının şöbə müdiri
E-mail: nazimmustafa@mail.ru
https://orcid.org/0000-0002-5964-8886

**Annotasiya.** Məqalədə mənbələrə və tədqiqat əsərlərinə istinadən qədim İrəvan şəhərinin ermənilərə heç bir aidiyyəti olmadığı əsaslandırılır. İrəvan şəhəri təkcə tarixi-memarlıq abidələri ilə deyil, həmçinin elm və mədəniyyət mərkəzi kimi Azərbaycan şəhərləri arasında özünəməxsus yer tuturdu. İrəvan şəhərində doğulub boya-başa çatan yüzlərlə elm, mədəniyyət, incəsənət, din xadimlərinin adları Azərbaycan tarixinə həkk olunmuşdur. Müxtəlif dövrlərdə İrəvanda olmuş səyyahlar, salnaməçilər, tədqiqatçılar İrəvan şəhərini Şərqin inkişaf etmiş elm və mədəniyyət mərkəzi kimi təsvir etmişlər. XX əsrdə ermənilərin yüz illər boyu İrəvanda yaradılan, azərbaycanlılara məxsus maddi-mədəniyyət nümunələrinin izlərini tədricən yer üzündən sildikləri və hazırda İrəvan şəhərinin monoetnik erməni şəhərinə çevrilməsi məqalədə tutarlı faktlarla işıqlandırılır.

**Açar sözlər:** İrəvan, Erivan, Erebuni, İrpuni, Yerevan, Ermənistan, Urartu, Zəngi, Xan sarayı, məscidlər, karvansaralar.

**Məqaləyə istinad:** Mustafa N. (2022). Qədim Azərbaycan şəhəri İrəvan. *«Məktəbəqədər və ibtidai təhsil»*, Xüsusi buraxılış – İrəvan Müəllimlər Seminariyası, 2 (2022). səh. 9-29.
**Məqalə tarixçəsi:** göndərilib – 05.05.2022; qəbul edilib – 17.06.2022.

## Giriş / Introduction

Müxtəlif dövrlərdə İrəvan şəhərinin yerləşdiyi ərazi Urartu, Sasani, Ərəb xilafəti, Sacilər, Şəddadilər, Səlcuqilər, Eldənizlər, Elxanilər, Teymurilər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar çar Rusiyası dövlətinin tərkibinə daxil olmuşdur. Yalnız 1918-ci ildə Cənubi Qafqazda ilk erməni dövləti yarandıqdan sonra rusların səyi ilə İrəvan şəhəri Ermənistana paytaxt kimi (99 il müddətinə) verilmişdir.

İrəvan şəhəri 40°08′ şimal en dairəsi, 44°10′ şərq uzunluğunda, Ağrı vadisinin şimal-şərq hissəsində yerləşir. Dəniz səviyyəsindən təqribən 900–1000 metr yüksəklikdə yerləşən İrəvan şəhəri hər tərəfdən bağlarla əhatə olunmuşdur.

Yalnız Azərbaycan türklərinin məskun olduqları bu şəhərin adı orta əsr yazılı mənbələrində Rəvan, İrəvan, İrivan kimi qeyd edilmişdir. XIX əsrin əvvəllərində rus qoşunları tərəfindən işğal edilməsindən sonra şəhərin adı Erivan (Эривань) kimi yazılmışdır. 1936-cı ildə bu ad dəyişdirilərək "Yerevan" adlandırılmışdır.

## Əsas hissə / Main part

Erməni tarixçiləri şəhərin adının Urartu çarı I Argiştinin dövründə (e. ə. 782-ci ildə) salınmış Erebuni (İrpuni) qalasının adı ilə bağlamağa çalışırlar. Erebuni qalası yalnız hərbi istehkam kimi inşa edilmiş və onun ətrafında heç vaxt şəhər infrastrukturu formalaşmamışdı. Urartuluların ermənilərə heç bir aidiyyəti olmadığı kimi, qədim Erebuni qalasının da indiki İrəvan şəhəri ilə nə məkan, nə də zaman baxımından əlaqəsi olmamışdır. İndi ermənilərin "Arin-berd" ("Qanlıtəpə") adlandırdıqları bu təpə İrəvan şəhərinin cənub-şərq istiqamətində yerləşir. 1879-cu ildə rus arxeoloqu A.İvanovski İrəvan ətrafındakı Çölməkçi kəndində üzərində mixi yazılar olan və Urartu çarı I Argiştinin hakimiyyəti dövrünə aid mətni əks etdirən bazalt daş aşkar etmişdir[1]. Sonradan həmin ərazidə üzərində mixi yazıları olan daha bir neçə daş aşkar edilmişdi.

Qədim İrəvan yaşayış məntəqəsi ilə 1950-ci ildə arxeoloji qazıntılar zamanı üzə çıxan Erebuni qalası arasında xeyli məsafə olmuşdur. Yalnız XX əsrin ikinci yarısından başlayaraq Erebuni qalasının yerləşdiyi Qanlı təpə şəhərətrafı əraziyə daxil edilmişdir. Urartulular dövrünə aid tapılan mixi yazılardan aydın olmuşdur ki, e.ə. VIII əsrin birinci rübündə Ağrı vadisi (*Araz çayının sol sahili və Arpaçayın aşağı axarı*) urartulular tərəfindən işğal edilənədək həmin ərazi "Aza xalqının ölkəsi" adlandırılmışdır[2].

[1] Oganesyan K. Arin-berd (Qanli-tapa) – urartskaya krepost goroda Irpuni. Izvestiya Akademii Nauk Armyanskoy SSR, № 8, 1951, s. 75.

[2] Arutunyan N.B. Bayanili (Urartu). Yerevan: A.N Armyanskoy SSR, 1970, s. 423.

İrəvanın Urartu çarı I Argişti tərəfindən əsası qoyulan Erebuni (İrpuni) qalası ilə eyniləşdirilməsi ermənilər tərəfindən tarixin saxtalaşdırılmasının bariz nümunəsidir. Akademik Boris Piotrovskinin milliyyətcə erməni olan arvadının xatirinə irəli sürdüyü "Ola bilər ki, Urartu şəhəri Erebuninin adı Ermənistanın paytaxtı Yerevan şəhərinin adında yaşamaqda davam edir"[3] fərziyyəsi ermənilərə imkan verdi ki, İrəvanı Erebuni kimi təqdim etsinlər. Beləliklə 1968-ci ildə İrəvanın "2750 illik yubileyi" təntənəli surətdə qeyd edildi. Bununla da ermənilər dünyaya car çəkdilər ki, guya İrəvan şəhəri qədim Romadan 30 yaş "böyük" imiş.

"İrəvan" toponiminin "ermənicə danışan" Nuh peyğəmbərlə bağlanması da erməni tarixçilərinin yalan uydurmaqda necə mahir olduqlarının göstəricisidir. Erməni mifologiyasına görə, dünyanı su basarkən Nuh peyğəmbərin düzəltdirdiyi gəmi Ararat (Ağrı) dağının zirvəsinə yan alıbmış. Su çəkiləndə Nuh peyğəmbərin guya quru sahə kimi gördüyü və ilk söylədiyi ifadə "yereval" (yəni ermənicə "göründü") olmuşdur. Həmin görünən yer isə guya indiki İrəvan şəhərinin mövcud olduğu ərazi imiş. Erməni yazıçısı Xaçatur Abovyan rus dilində yazdığı "Краткий исторический очерк г. Эривани" adlı məqaləsində qeyd edir: "Erməni yazıçıları eramızın XIII əsrinin əvvəllərinədək İrəvan şəhərinin adını belə çəkmirlər. Bu zamandan, yəni 1209-cu ildən etibarən oranı "kiçik yer" adlandırırlar. Xalq arasında gəzən rəvayətə görə, guya "İrəvan" adı erməni çarı Yervandın adından və yaxud erməni sözü olan *yerevil, yerevan,* yəni *gördü, göründü* sözlərindən əmələ gəlib və guya Nuh Araratın zirvəsindən ilk dəfə quru torpağı bu yerlərdə, yəni şəhərin yerləşdiyi ərazidə görərkən onu bu cür adlandırmışdır. Bu, tamamilə uydurmadır. Daha doğrusu, bu şəhər 1441-ci ildən, Cahan şah dövründə iranlılar (*yəni Qaraqoyunlu əmirləri – N.M.*) buranı zəbt etdikdən sonra məşhurlaşmışdır. O dövrdən 1827-ci ilədək İrəvan gah iranlılar, gah da türklər tərəfindən zəbt olunur, tez-tez bir xalqın əlindən digər xalqın əlinə keçirdi... Sonuncu İrəvan sərdarı da daxil olmaqla, İrəvan şəhərini və onun qəzasını müxtəlif zamanlarda türklər tərəfindən 10 paşa və iranlılar tərəfindən 33 xan idarə etmişdir..."[4].

İlk mənbələr təsdiq edir ki, indi rəsmən "Hayastan" (Ermənistan) adlandırılan əraziyə haylar (ermənilər) ilk dəfə xristianlığın dövlət dini səviyyəsinə yüksəlməsindən sonra, missionerlər kimi gəlmişlər. Haylar ərəb xilafəti dövründə islam dinini qəbul edən aborigen türk mənşəli boyların tərk etdikləri dini məbədlərə sahib çıxmış, həmin məbədləri kilsəyə çevirmiş, elə oradaca saxta tarixi faktlar quraşdırılmışdır.

Ərəb xilafətinin qoşunları ilk dəfə 642-ci ildə Cənubi Azərbaycan və Naxçıvan üzərindən indiki Ermənistan ərazisinə daxil olmuşlar. Xilafət dövründə

[3] Piotrovskiy B.B. Vanskoye tsarstvo (Urartu). Moskva: Izd-o Vost. Lit, 1959, s. 31.

[4] Khachatur Abovyan. Selected Works (in Armenian), Volume VIII, Yerevan, 1958, p.287. (Xaçatur Abovyan. Seçilmiş əsərləri (erməni dilində), VIII cild, Yerevan, 1958).

Cənubi Qafqazdakı əmirliklərin idarəçiliyi, bir qayda olaraq, türklərə həvalə edilirdi. Erməni tarixçisi A.Ter-Qevondyan yazır: "Əgər Ərəb xilafəti dövründə Yerevan (İrəvan) şəhər kimi mövcud olmuş olsa idi, ticarət yolu da oradan keçərdi. Lakin Ərəb xilafəti dövründən bəhs edən erməni müəllifləri qeyd edirlər ki, həmin dövrdə karvan yolu İrandan və Naxçıvan-Dvin (Dəbil) üzərindən kiçik Asiyaya yönəlirdi"[5].

Ermənilərin İrəvan ətrafında məskunlaşması 1441-ci ildə Qaraqoyunlu hökmdarı Cahan şahın razılığı ilə erməni katolikosluğunun iqamətgahının Kilikiyadan Valarşabad kəndindəki Üçmüəzzin (Üçkilsə) kilsəsinə köçürülməsindən sonra başlamışdır.

Şəhər kimi orta əsrlərdə formalaşan bu qala-şəhər, eyni zamanda Azərbaycanın zəngin mədəniyyət mərkəzlərindən biri olmuşdur. İrəvan şəhəri bir mərkəz kimi, Çuxur-Səəd bəylərbəyliyi və İrəvan xanlığı dövrlərində sosial-iqtisadi cəhətdən sürətlə inkişaf etmişdir. Zəngi və Gedər çaylarının arasında yerləşən İrəvan şəhəri şimal-qərb və şimal-şərq tərəfdən dağlarla və təpələrlə, cənub və cənub-qərb tərəfdən isə əkinə yararlı, münbit vadi ilə əhatə olunmuşdu. İrəvan qalası Zəngi çayının sol sahilində yerləşən sıldırımlı təpənin üzərində salınmışdı. Çox məşhur olan İrəvan qalası və onun bağları şəhərə gələn bütün səyyahların diqqət mərkəzində olmuş, onlar haqqında geniş məlumatlar verilmişdir.

Türk səyyahı və coğrafiyaşünası Övliya Çələbi İrəvanı, yaşayış məntəqəsi kimi, XV əsrin əvvəllərinə aid edir. Onun yazdığına görə, hicri təqvimi ilə 810-cu ildə (1407–1408) Əmir Teymurun tacirlərindən Xacə xan Ləhicani adlı tacir çox münbit Rəvan torpağına qədəm qoymuş, öz ailə üzvləri ilə burada sakin olmuş və düyü əkini hesabına gündən-günə varlanaraq, bu böyük kəndin əsasını qoymuşdur. Övliya Çələbi daha sonra əlavə edir ki, Səfəvilər dövlətinin başçısı Şah İsmayıl hicri təqvimi ilə 915-ci ildə (1509–1510) qala salınması barədə öz vəziri Rəvanqulu xana göstəriş vermiş, o da öz növbəsində 7 ilə qalanı tikdirərək, adını "Rəvan" qoymuşdur[6].

Qaraqoyunluların hakimiyyəti dövründə İrəvanın daxil olduğu ərazi Səədli tayfasının başçıları tərəfindən idarə edilirdi və Çuxur-Səəd əmirliyi adlanırdı. Əgər həmin dövrdə Çuxur-Səəd əmirliyinin iqamətgahı İrəvanda yerləşmiş olsaydı, Səədli tayfasının başçılarının qəbiristanlığı da orada olmuş olardı. Lakin 1411-ci ildə vəfat edən Çuxur-Səəd əmiri Əmir Səədin məqbərəsi onun oğlu Pir Hüseyn tərəfindən İrəvan şəhərindən 7 km cənubda yerləşən Göykümbət (*1946-cı ildən Arqavand adlandırmışlar– N.M.*) kəndində 1413-cü ildə ucaldılmışdır. Əmir Səəd məqbərəsi hazırda mövcuddur və ermənilər onu "türkmən abidəsi"

[5] Ter-Gevondyan A.N.Armeniya i arabskiy xilafat. Yerevan, 1977, s. 63.

[6] Çələbi Övliya. Səyahətnamə (Azərbaycan tarixinə aid seçmələr. Hazırlayan Seyidağa Onullahi). Bakı, "Azərnəşr", 1997, s. 50.

kimi təqdim etməyə çalışırlar[7].

Bəzi tədqiqatçılar İrəvan şəhərinin və qalasının salınmasının tarixçəsi ilə bağlı Övliya Çələbinin yazdıqları ilə razılaşır, bəziləri isə şəhərin tarixinin daha qədim olması haqqında yazan digər müəllifləri haqlı hesab edirlər. Fakt odur ki, Şah İsmayıl 1501-ci ildə İrəvan şəhərini fəth etdikdən sonra sərkərdəsi Rəvanqulu xana Zəngi çayının sahilində strateji əhəmiyyətli yerdə qala tikdirməyi həvalə etmişdir. Rəvanqulu xan da qalanı 7 il ərzində tikdirərək başa çatdırmışdır[8].

Orta əsrlərdə şəhər kimi formalaşan, yalnız Azərbaycan türklərinin yaşadığı bu qala-şəhər, eyni zamanda Azərbaycanın zəngin mədəniyyət mərkəzlərindən biri olmuşdur. İrəvan şəhəri bir mərkəz kimi, Çuxur-Səəd bəylərbəyliyi və İrəvan xanlığı dövrlərində sosial-iqtisadi cəhətdən sürətlə inkişaf etmişdir.

Səfəvilər dövründə Çuxur-Səəd bəylərbəyliyini əsasən rumlu və ustaclı qızılbaş əmirləri idarə etmişlər. Osmanlı və Səfəvi imperiyaları arasında gedən müharibələr nəticəsində İrəvan şəhəri 14 dəfə əldən-ələ keçmişdir. Hər dəfə də müəyyən dağıntılara məruz qalmış, sonradan yenidən bərpa edilmişdir.1554-cü ildə Osmanlı qoşunları İrəvanı darmadağın edərək onu ələ keçirmişdi. 1580-ci ildə Osmanlı vəziri Lələ Mustafa paşa yenidən İrəvanı işğal etmişdir. Bir çox səyyah və tarixçilərin təsvir etdikləri İrəvan qalası köhnə qalanın yerində, Osmanlı işğalı dövründə Fərhad paşa tərəfindən 1582–1583-cü illərdə inşa edilmişdir. Uzunluğu 850 m, eni 790 m olan qala təqribən kvadrat formasında olub, 7 *ha* ərazini əhatə edirdi. İkiqat qala divarlarının hündürlüyü 10,5–12 *m* idi. Qalanın birqat divarı Zəngi çayının yuduğu qayalıqların üstündən keçirdi. Qalanın üç qapısı var idi: cənubda Təbriz qapısı, şimalda Şirvan qapısı (yaxud Meydan qapısı) və Körpü qapısı. 1679-cu ildə Meydan qapısı ilə Köhnə şəhər arasında, Zəngi çayının üzərində Qırmızı körpü adlanan körpü salınmışdı.

Avropadan və Rusiyadan gələn səyyah və tədqiqatçılardan Jan Tavernye, Jan Şarden, Ceyms Morier, İvan Şopen, Dübua de Monpere, qrafinya Praskovya Uvarova, Henri Linç, akademik Nikolay Marr, rəssam Qriqori Qaqarin və başqaları müxtəlif vaxtlarda İrəvanda olmuş, Xan sarayını, onun Güzgülü salonunu, Yay köşkünü, qaladakı, şəhərdəki məscidləri, karvansaraları, hovuz və hamamları öz əsərlərində təsvir etmişlər.

İrəvan şəhəri 4 massivdən ibarət olmuşdur: Qala, Şəhri (yaxud Köhnə şəhər), Təpəbaşı (hazırda Kond adlanır) və Dəmirbulaq (hazırda Karanki tağ adlanır) massivləri. Qala ilə digər yaşayış massivləri arasında Bazar meydanı və bağlar mövcud idi. Şəhri məhəlləsi Qırxbulaq çayının sağ sahili ilə İrəvan qalasına kimi uzanırdı. Şəhərin mərkəzi bazarı, bütün meydanları, bir çox karvansaraları və

[7] Papazyan A. Arabskaya nadpis na grobnitse turkmenskix Emirov v sele Argavand. Jurnal «Blijniy i sredniy Vostok». Sb. statey pamyati B.I.Zaxodera, Moskva, 1961, s. 74-75.

[8] Çələbi Övliya. Göstərilən əsəri, s. 50.

hamamları bu hissədə yerləşirdi. Təpəbaşı məhəlləsi Zəngi çayı ilə Şəhri məhəlləsinin arasındakı təpəlikdə yerləşirdi. Təpəbaşı məhəlləsini Şəhri məhəlləsindən İrəvanın adlı-sanlı adamlarının çoxsaylı bağları ayırırdı. Hüseynqulu xana məxsus məşhur Xan bağı və Yay köşkü Zəngi çayının sağ sahilində yerləşirdi. Dəmirbulaq məhəlləsi Şəhri məhəlləsindən cənub-şərqdə, İrəvan qalasının şərqində yerləşirdi.

1604-cü ildə I Şah Abbasın qoşunları İrəvan şəhərini türklərin əlindən alsa da, əks-hücum nəticəsində geri çəkilərkən "yandırılmış torpaq" taktikası yürütmüş, Çuxur-Səəd bəylərbəyliyinin bütün əhalisini, o cümlədən İrəvan şəhərinin əhalisini Arazın o tayına köçürmüşdü.

1635-ci ildə Osmanlı qoşunları yenidən İrəvanı ələ keçirir. 1639-cu ildə Səfəvilərlə Osmanlılar arasında bağlanan Qəsri-Şirin müqaviləsinə əsasən, İrəvan əyaləti, o cümlədən İrəvan şəhəri yenidən Səfəvilərin hakimiyyəti altına keçir. Səfəvilərin süqutundan sonra şəhər 1723-cü ildə türklər tərəfindən işğal edilir. 1733-cü ildə Nadir şah İrəvanı osmanlılardan azad edir. 1747-ci ildə Nadir şah Əfşarın öldürülməsindən sonra müstəqil xanlıqlar yaranır. İrəvan şəhəri eyniadlı xanlığın mərkəzi olur.

İrəvan qalasında və şəhərdə nadir memarlıq inciləri hesab edilən çox sayda məscidlər, karvansaralar, hamamlar, istirahət parkları inşa edilmişdi. Şəhərə Qırxbulaq yaylağından içməli su çəkilmiş, yeni suvarma kanalları sayəsində İrəvan bağlar diyarına çevrilmişdi.

1679-cu il, iyun ayının 4-də İrəvanda baş verən zəlzələ şəhərin bütün tikililərini darmadağın etsə də, Naxçıvan, Gəncə, Qarabağ, Təbriz və Maku bəylərbəyliklərinin köməyi ilə tezliklə bərpa edilmişdi.

Şərqin nadir memarlıq incilərindən hesab edilən Xan sarayı, yaxud Sərdar sarayı İrəvan sərdarı Əmirqunə xan Qacar (1605–1625) tərəfindən ucaldılmış, 1760–1770-ci illərdə İrəvan xanı Hüseynəli xan (1762–1783) tərəfindən təkmilləşdirilmişdi. 1791-ci ildə Hüseynəli xanın oğlu Məhəmməd xan (1784–1805) sarayın Şüşəbənd adı ilə də tanınan Güzgülu salonu və Yay imarətini inşa etdirmişdi.

İrəvan şəhəri və onun ətrafındakı *hidronimlərin* (çay, göl, bulaq və s.), *oronimlərin* (dağ, dərə, aşırım, düzənlik və s.), *oykonimlərin* (yaşayış məntəqələri, küçələr, məhəllələr və s.) mütləq əksəriyyətinin Azərbaycan türkcəsində olması bir daha onu göstərir ki, bu ərazi azərbaycanlıların qədim yaşayış məskənlərindən olmuşdur. İrəvan şəhəri ərazisində aparılan qazıntılar zamanı aşkara çıxan maddi-mədəniyyət nümunələri içərisində indiyədək ermənilərə məxsus olan hər hansı nümunəyə rast gəlinməmişdir.

Quru subtropik iqlim zonasında yerləşən İrəvan şəhəri olduqca münbit və bərəkətli torpaqlarla əhatə olunmuşdur. Məşhur İrəvan bağları və bostanları İrə-

van xanlarının müxtəlif dövrlərdə Zəngi və Gedər çaylarından çəkdirdikləri kanallarla suvarılmışdır. Zəngi çayından şəhərdəki və ətrafdakı bağları suvarmaq üçün 4 kanal – Mamrə, Abuhəyat, Dəlmə və Təzəkənd kanalları çəkilmişdi[9]. Şəhərin cənubundakı bağlar isə Qırxbulaq çayından çəkilən kanal və arxlarla suvarılırdı.

İrəvan torpaqlarından ildə 2–3 dəfə məhsul götürülürdü. XX əsrin əvvəllərinədək İrəvan şəhəri 4 mənbədən – Zəngi çayı, Söyüdlük adlanan ərazidəki çoxsaylı bulaqlar, Gedər çayının şəhər bağlarından keçən hissəsində tikilən su anbarı və müxtəlif yerlərdə qazılan kəhrizlər vasitəsi ilə içməli su ilə təmin edilirdi. XX əsrin əvvəlində İrəvandan təqribən 19 km uzaqlıqda Gedər çayının mənbəyindən (Qırxbulaqdan) şəhərə su kəməri çəkilmişdi. Bu kəmərin çəkilməsində şəhərin imkanlı azərbaycanlılarından Abbasqulu xan İrəvanskinin müstəsna xidməti olmuşdu[10].

Fransız səyyahı Jan Şarden “Parisdən İsfahana səyahət” əsərində 1673-cü ildə İrəvanda gördüklərini geniş şəkildə təsvir etmişdir. İrəvan qalasını, Xan sarayını təsvir edən Şarden yazır ki, təxminən 800 evdən ibarət olan qala kiçik bir şəhərdən böyükdür, orada ancaq təmiz qanlı səfəvilər yaşayırlar[11]. “Təmiz qanlı səfəvilər” dedikdə, müəllif İrəvanın şiə məzhəbli türk qızılbaş əhalisini nəzərdə tuturdu.

Osmanlı dövləti ilə Qacarlar dövləti arasında strateji mövqedə yerləşən İrəvan qalasını ələ keçirmək Rusiya üçün də böyük əhəmiyyət kəsb edirdi, lakin rus qoşunlarının 1804-cü və 1808-ci illərdə İrəvan qalasını ələ keçirmək cəhdləri puç olmuşdu. 20 ildən artıq müddətdə rus qoşunlarının fasilələrlə hücumuna dəyanətlə tab gətirən İrəvan qalası, nəhayət 1827-ci il, oktyabr ayının 1-də ermənilərin qala divarlarının zəif yerlərini rus komandanlığına nişan vermələri nəticəsində süqut etdi.

Türkmənçay (1828) və Ədirnə (1829) sülh müqavilələrinin imzalanmasından sonra İrəvan azərbaycanlılarının qara günləri başladı. İrəvan və Naxçıvan xanlıqlarının işğalından sonra yaradılan yeni inzibati ərazidə – “Erməni vilayəti”ndə 1829 –1831-ci illərdə kameral siyahıyaalma keçirən İvan Şopenin İrəvan şəhərinin əhalisi haqqında verdiyi statistik məlumatlarda şəhərdə 2751 ailənin (11463 nəfər), o cümlədən 1807 müsəlman ailəsinin (7331 nəfər), 567 yerli erməni ailəsinin (2369 nəfər), İrandan köçürülən 366 erməni ailəsinin (1715 nəfər) və Tür-

---

[9] Razvitiye Yerevana posle prisoyedineniya Vostochnoy Armenii k Rossii. Sbornik dokumentov. 1801–1917 gg. Yerevan: Izd-vo Yerevanskogo Universiteta, 1978, s. 183.

[10] Akopyan Tadevos. Ocherk istorii Yerevana. Yerevan, Izd-vo Yerevanskogo Universiteta, 1977, s. 269-273.

[11] Şarden J. Səyahətnamə. (Fransız dilindən tərcümə edən V.Aslanov). Bakı, “Elm”, 1994, s. 21.

kiyədən köçürülən 11 erməni ailəsinin (48 nəfər), habelə 46 boşa (xristian qaraçıları) ailəsinin (195 nəfər) yaşadığı göstərilmişdir[12]. Yalnız XIX əsrin sonlarında Türkiyədə baş qaldıran erməni üsyanlarının yatırılmasından sonra ermənilərin İrəvan quberniyasına axışıb gəlmələrindən və 1905–1906-cı illərdə azərbaycanlılara qarşı kütləvi qırğınlar həyata keçirmələrindən sonra İrəvan şəhərində ermənilər say üstünlüyünə nail oldular.

İrəvan qalasının işğalından dərhal sonra, ilk olaraq Osmanlı sərkərdəsi Rəcəb paşa tərəfindən 1725-ci ildə inşa etdirilmiş məscidin günbəzindəki ayparanı çıxararaq, onun yerinə xaç asmış, minarəsində isə kilsə zəngi quraşdıraraq, onu pravoslav kilsəsinə çevirmişdilər. Qaladakı Sərdar məscidini rus qoşunlarının arsenalına çevirmiş, xanın hərəmxanasını isə hospital etmişdilər[13]. Yeni yaradılan "Erməni vilayəti"nin administrasiyası Xan sarayında yerləşirdi. İmperator I Nikolayın Şimali Azərbaycan xanlıqlarının axırıncı istehkamı olan əfsanəvi İrəvan qalasını görmək arzusu 1837-ci ildə reallaşmışdı. I Nikolay şəhərin müxtəlif təbəqələrinin nümayəndələrini Güzgülü zalda qəbul etmişdi.

1853-cü ildə baş verən zəlzələ nəticəsində İrəvan qalasının divarları yenidən uçmuşdur. 1864-cü ildə İrəvan qalasından hərbi məqsədlər üçün istifadəyə son qoyulmuşdur. 1868-ci ildən Xan sarayının Sərdar zalında İrəvan şəhər polis idarəsi yerləşirdi.

1865-ci ildə İrəvan qalasının ərazisinin bir hissəsini Nerses Tahiryan adlı tacir satın alaraq, orada şərab zavodu (indi konyak zavodu) inşa etdirmişdir.

Rusiya İmperator Arxeoloji Komissiyasının qərarına əsasən, 1911-ci ilin iyul ayında Xan sarayına baxış keçirən akademik N. Marr Güzgülü zalın Zəngi çayı tərəfə baxan hissəsinin şüşəbəndinin darmadağın edildiyini, zalın döşəməsinin açıq-boz rəngli plitələrinin, cilalanmış mərmərdən düzəldilmiş fəvvarəli hovuzun da vəhşicəsinə sındırıldığını qeyd etmişdir. Akademik N. Marr ürək ağrısı ilə yazırdı: "Zalın hər iki tərəfindəki yan otaqlar ayaqyoluna çevrilmişdi. Halbuki, həmin otaqlardan birində vaxtilə imperator I Nikolay gecələmiş və öz dəst-xətti ilə adını divara yazmışdı". N.Marrın "Görünür, biz yerli qədim abidələrin sistematik şəkildə dağıdılması ilə üzləşmişik. Təbiidir ki, bu dağıdıcı fəaliyyət son nəticədə qədim abidələrin izlərini itirməyə yönəlib" fikri hələ XX əsrin əvvəllərində erməni vandallarının əsl simasını ortaya qoyurdu[14]. Lakin N.Marrın bütün söylə-

---

[12] Shopen I.I. Istoricheskiy pamyatnik sostoyaniya Armyanskoy oblasti v epoxu yeyo prisoyedineniya k Rossiyskoy imperii. S-Pb., 1852, s. 543-546.

[13] Akopyan Tadevos. The history of Yerevan (1500-1800). Yerevan, 1971, p. 276, in Armenian). (Akopyan Tadevos. Yerevanın tarixi (1500-1800). İrəvan, 1971, s. 276, ermənicə).

[14] Erivan. Sardarsky dvorets. 1725 q. "Izvestiya Imperatorskoy Arxeologicheskoy Komissii". Vipusk 46, S.Peterburg, 1912, s. 75-81.

rinə baxmayaraq, Xan sarayı qorunan tarixi-memarlıq abidələrinin siyahısından çıxarılmışdı. 1914-cü ildə Xan sarayının Tiflisdəki Hərb Tarixi muzeyinə təhvil verilən inventarları hazırda Gürcüstan Dövlət İncəsənət Muzeyində saxlanılır.

İrəvan şəhəri karvan yollarının kəsişdiyi məkanda yerləşdiyi üçün burada çoxlu karvansaralar və ticarət meydanları salınmışdı. Daşdan hörülmüş, ortasında kvadratşəkilli meydançaları, su hovuzları olan karvansaralar İrəvanın gözəl tikililərindən hesab olunurdu. XIX əsrin əvvəllərində İrəvanda 8 karvansara mövcud olmuşdur. Culfa, Gürcü, Zərrabi xan (Sərrafxana), Tahir, Sulu, Susuz, Avşar, Hacı Əli karvansaralarında üst-üstə 851 köşk mövcud olmuşdur[15]. XIX əsrin sonlarına yaxın şəhərdə 20 karvansara mövcud olmuşdur. Erməni tədqiqatçısı T.Hakopyanın yazdığına görə, İrəvan şəhərində ən böyük və ən məşhur karvansara Gürcü karvansarayı olmuşdur. Hazırda Gürcü karvansarayının yerində "Sevan" hoteli tikilmişdir[16]. Bu karvansara ermənilərə məxsus olsa idi, onun adı Azərbaycan dilində yox, erməni dilində olardı.

İrəvan şəhərində bir neçə zərbxana mövcud olmuşdur. XVIII əsr səyyahlarının verdikləri məlumata görə, İrəvandakı zərbxanalarda gümüş və mis pullar zərb edilirdi. İrəvanda, başlıca olaraq, gümüş "abbası" və "şahı" nominalları kəsilirdi. Erməni tarixçilərinin iddia etdikləri kimi, İrəvan xanlığının ərazisində nə vaxtsa erməni dövləti və yaxud erməni idarəçiliyi mövcud olmuş olsaydı, onda həmin ərazidə dövlətçilik atributlarından biri hesab edilən və üzərinə erməni dilində yazılar həkk edilən pul kəsilər və dövriyyəyə buraxılardı. Arxeoloji qazıntılar zamanı və başqa yollarla Qafqaz regionunda, o cümlədən indiki Ermənistan ərazisində üzə çıxan qədim sikkələrin məşhur sovet nümizmatı Yevgeni Paxomov tərəfindən tədqiqi göstərmişdir ki, həmin sikkələr içərisində ermənilərə aid, bircə dənə də olsun, nümunəyə rast gəlinməmişdir[17].

İ.Şopenin verdiyi məlumata görə, şəhərin mərkəzində "Böyük Meydan" adlanan, 400x400 *m* ölçüdə meydan yerləşirdi. Ağır yükləri çəkmək üçün Qantar tərəzisi, yüngül yükləri çəkmək üçün Mizan tərəzisi bu meydanda yerləşirdi. Digər meydanlar Xan bağı, Zal xan, Hüseynəli xan, Fəhlə bazarı meydanı adlanırdı[18]. Pənah xan Makinskinin imarətinin yerləşdiyi ərazi isə son vaxtlaradək "Pənah xan meydanı" adlanırdı. Bu meydan hazırda "Saxarov meydanı" adlanır.

İrəvanda Şərq memarlıq üslubunda 10 hamam – Şəhər, Zal xan, Şeyxülislam, Mehdi bəy, Hacı Bəyim (*sonuncu İrəvan xanının qardaşı Həsən xanın qızı*),

---

15 Shopen İ.İ. Göstərilən əsəri, s. 468-469.

16 Akopyan Tadevos. Göstərilən əsəri, s. 276.

17 Paxomov E.A. Kladi Azerbaydzhana i drugix respublik i krayev Kavkaza. Vıp. II, Baku, Izd-vo Azerbaydzhanskogo filiala AN SSSR 1938.

18 Shopen İ.İ. Göstərilən əsəri, s. 877.

Təpəbaşı, Hacı Əli, Hacı Fətəli, Kərim bəy, Həsənəli hamamları mövcud idi[19]. Hazırda İrəvanın mərkəzindəki Respublika meydanının yerləşdiyi ərazidə vaxtilə mövcud olan Zal xan hamam kompleksində yeraltı çayxana ilə yanaşı, muğamat məclislərinin keçirilməsi üçün xüsusi otaq ayrılmışdı.

XIX əsrin sonları – XX əsrin əvvəllərində İrəvan şəhərində adları azərbaycanca səslənən onlarla küçə mövcud idi. Qədim İrəvanda bu küçələr məşhur idi: Şəriət, Karvansara, Qala, Sultan, Çölməkçi, Naxçıvan, Bazar, Daşlı, Paşa xan, Qəriblər ocağı, Dəyirmanlı, Məscid, Fəhlə bazarı, Təpəbaşı, Qəbiristan, Naib, Mir Cəfər, Rüstəm xan, İmamrə, Korbulaq, Bəy, Kətan, Dükanlı, Sallaxlar və s.[20].

Bağlar diyarı İrəvanda və onun ətrafında 1473 bağ mövcud olmuşdur ki, onlardan 772-si şəhərin içərisində idi. Sərdar bağı, Dəlmə, Abbas dərəsi, Abu-həyat, Keşağlı, Qızılqala, Dərə bağı, Səvzikər, Xosrovabad, Söyüdlü, Qul dərəsi, Kənkan, Kərpicxana bağlarının ad-sanı İrəvandan çox-çox uzaqlara yayılmışdı. İrəvan bağlarının bəzi məhsulları qurudulmuş şəkildə Rusiyanın və Avropanın bir çox şəhərlərinə ixrac edilirdi[21].

Şəhərdə və onun ətrafında 45 dəyirman mövcud idi. Azərbaycanlılara məxsus Hacıbəyim, Məhəmməd xan, Sübhanqulu xan, Qala, Xan, Doqquz dəyirmanlar şəhərin ən böyük dəyirmanları olmuşdur[22].

XIX əsrin 30-cu illərində İrəvan şəhərində sənətkarlıqla 2318 nəfər məşğul olmuşdur. Onlardan 1436 nəfərini azərbaycanlılar, 468 nəfərini yerli ermənilər, 386 nəfərini isə İrandan köçürülüb gətirilən ermənilər təşkil edirdilər[23].

Tarixi ədəbiyyatlarda İrəvan şəhərində 15-ə yaxın məscidin və onun ətrafında iki erməni kilsəsinin adları keçir. Göy məscid (yaxud Hüseynəli xan məscidi), Qala məscidi (Sərdar, yaxud Abbas Mirzə məscidi), Şah Abbas, Təpəbaşı, Zal xan (yaxud Şəhər məscidi), Sərtib xan, Hacı Novruzəli bəy, Dəmirbulaq, Hacı Cəfər bəy, Rəcəb paşa, Məhəmməd Sərtib xan, Hacı İnam məscidlərinin minarələri uzaqdan İrəvanın müsəlman şəhəri olmasını nişan verirdi[24]. Şəhərin ətrafında mövcud olan Poğos-Petros və Katoğke kilsələri vaxtilə xristian missionerlərinin vəsaiti hesabına tikilmişdi və məqsəd ermənilərin şəhərə axınını təmin

---

[19] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı, Azərbaycan, 2010, s.160.

[20] Razvitiye Yerevana..., s. 356-357.

[21] Shopen İ.İ. Göstərilən əsəri, s. 471.

[22] Yenə orada, s. 475.

[23] Yenə orada.

[24] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. s.158-159; Bournoutian G.A. The khanate of Erevan under Gajar rule 1795-1828. Mazda Publishers in association with Bibliotheca Persica Costa Mesa, California and New York, 1992, p. 205.

etməkdən ibarət idi.

Jan Şarden 1673-cü ildə İrəvanda olarkən şəhər bazarı ilə üzbəüz kərpicdən tikilən və həmin vaxt uçulub-dağılmış vəziyyətdə olan bir məscid haqqında məlumat vermişdi. O, bu məscidin onun əsasını qoyan şəxsin şərəfinə "Div Sultan məscidi" adlandırıldığını yazır. J.Şardeni İrəvan səfərində müşayiət edən rəssam Qrelonun çəkdiyi qədim qüllənin (türbənin) şəklində arxa planda daha iki möhtəşəm məscidin minarələri təsvir edilmişdir. İndi onların heç birindən əsər-əlamət qalmayıb. Erməni tarixçisi T.Hakopyan qeyd edir ki, çox güman, Div Sultan məscidi günümüzədək gəlib çatan Göy məscidin yerində olmuşdur və 1679-cu il zəlzələsi zamanı dağılmışdır[25].

1833-cü ildə fransız geoloqu və arxeoloqu, naturaçı Fredrik Dübua de Monpere 1839-cu ildə Parisdə çap etdirdiyi "Qafqaz ətrafına səyahət" əsərinin 3-cü cildində İrəvan qalasını və Göy məscidi ətraflı təsvir etmişdir. Onun Sərdar məscidinin əsas girişi tərəfdən çəkdiyi rəsm və Göy məscidin rəsmi hər iki məscidin möhtəşəmliyini və memarlıq nöqteyi-nəzərindən mükəmməl sənət əsəri olduğunu əyani şəkildə nümayiş etdirir. Həmin rəsmlər müəllifin adı çəkilən əsərinə əlavə olaraq 1840-cı ildə çap edilən atlasın üçüncü hissəsində yer almışdır. Qravüraçı Erkül Nikole Dübua de Monperenin çəkdiyi rəsmlərin qravüralarını hazırlamışdır[26].

Tanınmış rus arxeoloqu, qrafinya Praskovya Uvarova 1880-ci ildə İrəvan şəhərində olmuş, əsrlər boyu yaradılan tarixi-memarlıq abidələrinin dağıdılmasını ürək ağrısı ilə təsvir etmişdir. Erməni müəllifi Yervand Şahəzizin 1931-ci ildə İrəvanda çap edilən "Qədim İrəvan" əsərində P.Uvarovadan sitat gətirərək, onun Xan sarayının yaxınlığında yerləşən Sərdar məscidini Vereşşaginin fırçasından çıxan tabloya bənzətdiyini yazır. Y.Şahəziz P.Uvarovaya istinadən yazır ki, Sərdar məscidinin əsas günbəzi, xarici divarları, sütunları, iç divarları, çoxsaylı digər günbəzləri rəngli kaşılarla və gözəl təsvirlərlə bəzədilmişdir. P.Uvarova Sərdar məscidinin tünd mavi rəngli günbəzinin açıq səma ilə bütöv bir ahəng təşkil etdiyini, onun portalındakı tünd mavi lövhə üzərində ərəb əlifbası ilə, ağ rəngdə mətn həkk olunduğunu, divar sütunları üzərində ucalan minarələrin üzərinin kvadrat şəkilli, tünd mavi və açıq mavi kaşılarla bəzədildiyini qeyd etmişdir[27].

XIX əsrdə Qərbi Avropa və Rusiya bədii yaradıcılığının mütərəqqi ənənələri Azərbaycan sənətkarlarının yaradıcılığına da öz təsirini göstərmişdir. Yeni meyillər ilk növbədə, rəssamların iş üslubunda və təsvir formasında özünü büruzə

---

[25] Akopyan Tadevos. Göstərilən əsəri, s. 274.

[26] Frederic Dubois de Montpereux. Voyage autour du Caucase, chez les tcherkesses et les abkhases, en Georgie, en Armenie et en Crimee. Volume III, Paris, 1839, p. 346-347.

[27] Yervand Shahaziz. Ancient Iravan. Iravan, 1931, in Armenian, p. 170-171. (Yervand Şahəziz. Qədim İrəvan. İrəvan, 1931, ermənicə, s. 170-171.

verirdi. Şimali Azərbaycan təsviri sənətində realist meyillər XIX əsr rəssamlığının görkəmli nümayəndələrindən sayılan Mirzə Qədim İrəvaninin (1825–1875) yaradıcılığında da öz əksini tapmışdır. O, Azərbaycan dəzgah boyakarlığının banisi hesab edilir.

Mirzə Qədim rəssamlığın bir çox sahələrində fəaliyyət göstərən sənətkarlardan olmuşdur. O, portret və ornamentli kompozisiyalar sahəsində xüsusilə böyük məharət göstərmişdir. Onun şüşə, dəri, parça üzərində işlənmiş əsərləri Bakıdakı Azərbaycan Dövlət İncəsənət Muzeyində, Tiflisdəki Gürcüstan Dövlət İncəsənət Muzeyində və Sankt-Peterburqda yerləşən Dövlət Ermitajında nümayiş etdirilir. Mirzə Qədim ilk əsərlərini şüşə üzərində çəkməyi sevirmiş. Bunlar da, əsas etibarı ilə, gənc qadın portretləri olmuşdur. Mirzə Qədimin hazırda Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılan qızılgül budağı üzərində oturan bülbül rəsmi xüsusilə diqqəti cəlb edir[28].

XIX əsrin 50-ci illərində baxımsızlıq üzündən yararsız hala düşən, nəmişlikdən divar rəsmləri korlanan, karniz və tavanın güzgüləri qopub tökülən Xan sarayında, qismən də olsa, bərpa işləri aparılmışdır. 1867–1874-cü illərdə Xan sarayında dəfələrlə aparılan bərpa işlərini Mirzə Qədim həyata keçirmişdir. O, Güzgülü zalda olan divar rəsmlərinin əksəriyyətini bərpa etmişdir. Rəssamın yağlı boya ilə çəkdiyi “Fətəli şah”, “İrəvan sərdarı”, “Həsən xan”, “Rüstəm Zal” portretləri hazırda Tiflisdəki Gürcüstan Dövlət İncəsənət Muzeyində, “Abbas Mirzə” portreti isə Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılır. Sənətşünas N.Miklaşevskaya həmin portretləri mahiyyət etibarilə, Azərbaycan dəzgah rəssamlığının ilk əsərləri hesab edir və 1914-cü ildə Sərdar sarayı dağıdılan zaman həmin portretlərin divarlardan qoparıldıqdan sonra Tiflisə aparıldığı və Gürcüstanda muzeydə saxlanıldığı barədə məlumat vermişdir[29].

İrəvan şəhərində mövcud olan azərbaycanlılara məxsus tarixi-memarlıq abidələrinin, o cümlədən Xan sarayının və məscidlərin məşhur rus fotoqrafı Dmitri Yermakov tərəfindən XIX əsrin 80–90-cı illərində çəkilmiş fotoları fotoqrafın 1896 və 1901-ci illərdə çap etdirdiyi albomlara daxil edilmişdir. Dmitri Yermakovun İrəvanda çəkdiyi fotoların böyük bir qismi hazırda Simon Canaşiya adına Gürcüstan Dövlət Muzeyinin Yermakov fondunda və Şalva Amiranaşvili adına Dövlət İncəsənət Muzeyində saxlanılır.

Alman incəsənət tarixçisi və arxeoloqu Fridrix Sarre 1897-cı ildə İrəvanda olmuş, Sərdar məscidinin və Göy məscidin müxtəlif rakurslardan fotoşəkillərini çəkmiş və sonradan həmin məscidləri müsəlman tarixi abidələri kimi elmi

[28] Əfəndi Rasim. Azərbaycan incəsənəti. Bakı, “Şərq-Qərb”, 2007, s. 114-115.

[29] Miklashevskaya N. O nasledii i traditsiyax v Azerbaydzhanskom izobrazitel'nom iskusstve. V kniqe: Iskusstvo Azerbaydzhana. Tom VII, Baku, 1959, s. 51.

tədqiqata cəlb etmişdir[30]. F.Sarrenin çəkdiyi fotoların bir qismi hazırda Berlin Dövlət Muzeyinin islam incəsənəti bölməsində saxlanılır.

Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra İrəvanda məscidlər bir-birinin ardınca erməni vandalları tərəfindən dağıdılmış, yaxud onların təyinatı dəyişdirilmişdir. Cənubi Qafqazın ən böyük məscidi olan Göy məsciddə İrəvan şəhərinin tarix muzeyi yerləşdirilmiş, Zal xan məscidi rəssamların sərgi salonuna çevrilmişdir. Yalnız Dəmirbulaq məscidi 1988-ci ilədək öz məqsədinə xidmət edirdi. Hazırda həmin məscid də yer üzündən silinmiş, onun yerində hündürmərtəbəli bina ucaldılmışdır[31].

Ermənistan hökuməti 2007-ci ildə ölkə ərazisində dini və milli azlıqlara məxsus olan və Ermənistan hökuməti tərəfindən qorunan məbədlərin və tarixi abidələrin siyahısını Avropa Şurasına təqdim etmişdir. Həmin siyahıya Mesrop Maştos küçəsi–12 ünvanında yerləşən Göy məscidin və Xorhrdarani küçəsi – 40 ünvanında yerləşən məscidlərin adları daxil edilmişdir. Qeyd edilən siyahıda Göy məscid İran məscidi kimi təqdim edilmiş, Abbas Mirzə məscidinin isə qəfəsinin (qalıqlarının) “qorunduğu” qeyd edilmişdir[32]. 2014-cü ilin noyabr ayında Sərdar məscid-kompleksindən qalan 2–3 metr enində, 3–4 metr hündürlüyündə olan divarın kiçik bir parçasını da erməni vandalları yox etmişlər.

İrəvan şəhərinin zəngin florası bu bölgənin xalçalarına xüsusi çalarlar vermiş, onun rəng kompozisiyalarının həllinə çoxçeşidli boyalar bəxş etmişdir. Al-əlvan boyalar bu bölgənin xalçalarını digərlərindən fərqləndirən əsas xüsusiyyətdir. Xalçaların naxış-kompozisiya seçimində də yerli əhalinin təsəvvürü, mifik görüşləri, inancları mühüm yer tutmuş, onların ifadəsi xalça rəsmlərində öz əksini tapmışdır[33].

Qarabağ və Təbriz xalçaçılıq məktəbinə daha yaxın olan İrəvan xalçaçılıq məktəbinin nümunələri zaman-zaman xarici ölkələrə daşınmış, erməni kolleksionerlərinin malına çevrilmişdir. Bu gün “Yerevan xalçası”, “erməni xalçası” adları altında dünya bazarlarına çıxarılan xalçaları azərbaycanlı xalça ustaları toxumuşlar.

1918-ci il, mayın 28-də Azərbaycan Milli Şurası 29 may tarixli qərarı ilə Dağlıq Qarabağa ərazi iddiası sürməmək şərti ilə İrəvan şəhərini paytaxt kimi er-

[30] Sarre Friedrich. Denkmäler persischer Baukunst : geschichtliche Untersuchung und Aufnahme muhammedanischer Backsteinbauten in Vorderasien und Persien. Berlin, 1910.

[31] Tomas de Vaal. Chornıy sad. Armeniya i Azerbaydzhan mejdu mirom i voynoy. Moskva, Tekst, 2005, s. 118-119.

[32] http://www.gov.am/u_files/file/kron/Armeniapr2_en.pdf.

[33] Muradov Vidadi. Azerbaijani carpets. Iravan group. Baku, Elm, 2011, p. 41.

mənilərə güzəştə getmişdir[34]. Lakin 1918–1920-ci illərdə mövcud olmuş daşnak hakimiyyəti dövründə İrəvan şəhərində azərbaycanlılara qarşı soyqırımı, onlara məxsus maddi-mədəniyyət abidələrinə qarşı vandalizm aksiyaları həyata keçirilmişdi.

Sovet hakimiyyəti illərində də azərbaycanlıların diskriminasiyası və deportasiyası rəsmi Ermənistanın siyasətinin tərkib hissəsi olmuşdur. 1924-cü ildə Aleksandr Tamanyanın layihəsi əsasında həyata keçirilən İrəvan şəhərinin rekonstruksiyası, əslində azərbaycanlıların izini silməyə xidmət edirdi. 1936-cı ildə İrəvan şəhərinin yeni baş planı hazırlanmışdır və onun həyata keçirilməsi nəticəsində qalanın içərisində müasir tipli hündürmərtəbəli binalar inşa edilmişdir. İkinci Dünya müharibəsi dövrünə aid şəkillərdə İrəvan qalasının divarlarının müəyyən hissəsinin hələ də mövcud olduğu görünür. Lakin sonralar qala divarları tamamilə sökülmüş və hazırda ondan əsər-əlamət qalmamışdır.

İrəvan qalasının həmyaşıdları və müasirləri – Bakıda İçərişəhərin qala divarları, onun içərisindəki Şirvanşahlar sarayı, Şəkidə Xan sarayını əhatə edən qala divarları bu gün də yaşayır və keçmişdən bu günə soraq verir. İrəvanda isə orta əsr memarlığından soraq verən, bircə dənə də olsun, tarixi abidə qalmamışdır. Azərbaycanlılara məxsus tarixi-memarlıq abidələrinin məhv edilməsinin nəticəsidir ki, İrəvan şəhərində yaşı 200 ildən yuxarı bircə dənə də olsun tarixi-memarlıq abidəsi qalmamışdır.

İrəvan ziyalılarının, elm, mədəniyyət və din alimlərinin yaratdıqları əsərlər bu gün dünyanın müxtəlif kitabxanalarında, arxivlərində və muzeylərində saxlanılır. Əslən İrəvandan olan və xarici ölkələrdə “İrəvani” soyadı və təxəllüsü ilə yazıb-yaradan onlarla elm və mədəniyyət xadimləri haqqında məlumatlar mövcuddur. XIX əsrin sonlarında bir müddət İrəvan gimnaziyasında müəllim işləyən görkəmli Azərbaycan ədəbiyyatşünası və maarif xadimi Firudin bəy Köçərli İrəvanı, haqlı olaraq, “mərkəzi-üləma, füzəla və şüəra” şəhəri – yəni üləmalar, fazillər və şairlər şəhəri adlandırmışdı[35].

İstər xanlıqlar dövründə, istərsə də Rusiyanın işğalı dövründə xanların, bəylərin, əyanların, din xadimlərinin övladlarının mükəmməl təhsil almalarına xüsusi fikir verilirdi. İmkanlı ailələr öz uşaqlarını xarici ölkələrdəki dünyəvi, yaxud ali dini məktəblərdə oxumağa göndərirdilər. Əslən İrəvan şəhərindən olan, “İrəvani” soyadını daşıyan onlarla ayətullah, müctəhid, höccətül-islam titulunu daşıyan din xadimləri yetişmişdi.

İrəvan şəhərində anadan olmuş görkəmli Azərbaycan həkimi və alimi Hacı Süleyman Qacar İrəvaninin (XVIII əsr) fars dilində yazdığı “Fəvaidül-hikmət”

---

[34] ARDA, fond 970, siy.1, iş 1, v. 51-52..

[35] Köçərli Firudin bəy. Azərbaycan ədəbiyyatı. İki cilddə. İkinci cild. Bakı, “Elm”, 1981, s. 202.

("Hikmətin faydası") əsəri nəinki Azərbaycanda, eləcə də Orta Asiyada, İranda böyük şöhrət qazanmışdı. Bu kitab orta əsr əczaçılıq ensiklopediyasıdır və minlərlə dərman bitkilərinin, heyvan və mineralların müalicəvi keyfiyyətlərindən bəhs edir. Bu əsərin nadir əlyazma nüsxələri Azərbaycan MEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda, həmçinin İran və Misirdəki kitabxanalarda saxlanılır[36].

İ.Şopenin yazdığına görə, İrəvan xanlığının ərazisində təhsillə, əsasən, müəyyən təhsil görmüş din xadimləri məşğul olurdular. Hər bir məscidin nəzdində böyük və yaxud kiçik mədrəsə fəaliyyət göstərirdi.

Erməni əsilli Stepan Zelinski "İrəvan şəhəri" məqaləsində göstərir ki, 1880-ci ildə İrəvan şəhərindəki məscidlərdə 153 şagird təhsil alırdı ki, onların təlimi ilə 8 müəllim məşğul olurdu. Bundan əlavə, S.Zelinski İrəvanda ali dini müsəlman məktəbinin də fəaliyyət göstərdiyini, hər il 60-a qədər tələbənin təhsil aldığını, tam kursu bitirdikdən sonra onlara axundluq səlahiyyəti verildiyini yazır[37].

Rusiyanın işğalı dövründə İrəvan şəhərində ilk dövlət ikisinifli qəza məktəbi 1832-ci il, yanvar ayının 14-də açılmışdı. 1868-ci il, mart ayının 15-də İrəvan qəza məktəbi dördsinifli klassik progimnaziyaya çevrildi. Progimnaziya 31 mart, 1881-ci ildə səkkiz sinifli tam gimnaziyaya çevrildi və sonralar İrəvan Oğlan Gimnaziyası adlanırdı. 1 yanvar, 1883-cü ilə olan məlumata görə, İrəvan gimnaziyasında təhsil alan 237 şagirddən 37-si azərbaycanlı olmuşdur[38].

İrəvan Oğlan Gimnaziyası Azərbaycan ictimaiyyətinə, dövlətinə, elminə, mədəniyyətinə incəsənətinə bir sıra görkəmli şəxslər bəxş etmişdir. Tanınmış dövlət xadimlərindən Məmməd bəy Qazıyev, Teymur bəy Makinski, Əkbər ağa Şeyxülislamov, Nəriman bəy Nərimanbəyov, Məhəmməd Məhərrəmov, Əziz Əliyev, maarif və elm xadimlərindən Miryusif Mirbabayev, Mustafa bəy Topçubaşov, Əhməd Rəcəbli, Maqsud Məmmədov, generallardan Həbib bəy Səlimov, Qambay Vəzirov İrəvan gimnaziyasının məzunları olmuşlar.

İrəvanda fəaliyyət göstərən məktəblərdən biri də 1850-ci il, yanvarın 2-də açılan Müqəddəs Ripsime qızlar məktəbi idi. Yalnız 1916–1918-ci illərdə Müqəddəs Ripsime məktəbini 36 azərbaycanlı qız bitirmişdi[39].

Müxtəlif vaxtlarda Mirzə Həsən Rüşdiyyə, Məşədi İsmayıl Kazımzadə, Mirzə Kazım Əsgərzadə, Haşım bəy Nərimanbəyov, Məhəmmədqulu bəy Kəngərlinski İrəvanda məktəb açaraq irəvanlı oğlan və qızlara dünyəvi təhsil verirdilər.

1881-ci il, noyabrın 3-də, tərkibində iki sinif olmaqla, İrəvan Müəllimlər

---

36 Alekperli Farid. Tisyacha i odin sekret Vostoka. Tom.II, Baku, "Nurlan", 2008, s. 105.

37 Sbornik materialov dlya opisaniya mestnostey i plemen Kavkaza (SMOMPK). Tiflis, 1881, Vip. I, otd. I, s. 44.

38 Razvitiye Yerevana..., s. 383.

39 Yenə orada, s. 412-413, 420 s.

Seminariyası açılmışdır. Tanınmış simalardan Haşım bəy Vəzirov, Həmid ağa Şahtaxtinski, Tağı bəy Səfiyev, İbadulla Muğanlinski, Şamil Mahmudbəyov, Cabbar Məmmədov İrəvan Müəllimlər Seminariyasının məzunları olmuşlar. İrəvan Müəllimlər Seminariyasının azərbaycanlı məzunları quberniyanın ərazisində mövcud olan rus-tatar (Azərbaycan– N.M.) məktəblərinə müəllim təyin edilirdilər.

Ermənilərin 1918–1920-ci illərdə İrəvanda həyata keçirdikləri soyqırımı Azərbaycan məktəblərinin hamısının bağlanması ilə nəticələndi. İrəvan ziyalılarının bir qismi erməni vəhşiliklərinin qurbanı oldular...

Ermənistanda sovet hakimiyyətinin ilk illərində İrəvan şəhərində azərbaycanlı qızlar məktəbində, keçmiş Haşım bəy Nərimanbəyovun məktəbinin bazasında fəaliyyət göstərən Məşədi Əzizbəyov adına səkkizillik məktəbdə (bu məktəbi irəvanlılar "Haşım bəyin məktəbi" adlandırırdılar), əvvəllər S.M.Kirov adına olan və sonralar Mirzə Fətəli Axundovun adını daşıyan orta məktəbdə və şəhərdəki digər iki beynəlmiləl məktəbdə azərbaycanlı uşaqlar təhsil alırdılar.

1924-cü ildən fəaliyyət göstərən, internat tipli İrəvan Türk Pedaqoji Texnikumunun məzunları arasından onlarla akademik, elmlər doktorları, yüzlərlə maarif fədailəri yetişmişdir. 1936-cı ildən bu məktəb "İrəvan Azərbaycan Pedaqoji Məktəbi" adlanırdı. Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti olmuş Yusif Məmmədəliyev Azərbaycan Ali Pedaqoji İnstitutunu bitirdikdən bir qədər sonra – 1928–1929-cu illərdə İrəvan Pedaqoji Məktəbində və fəhlə fakültəsində müəllim işləmişdir. Əslən İrəvan şəhərindən olan, elmin müxtəlif sahələrini əhatə edən 6 akademik, akademiyanın 3 müxbir üzvü, 30-a yaxın elmlər doktoru və 80-ə yaxın elmlər namizədi bu məktəbdə yetişmişdir.

Azərbaycanlıların Ermənistandan 1948–1953-cü illər deportasiyası zamanı İrəvan Pedaqoji Texnikumu 1948-ci ildə Azərbaycanın Xanlar (indiki Göygöl) rayonuna köçürülmüşdü.

1928-ci ildən İrəvanda Kənd Təsərrüfatı Texnikumunun Azərbaycan bölməsi fəaliyyətə başlamış, 1933-cü ildən həmin bölmə müstəqil İrəvan Azərbaycan Kənd Təsərrüfatı Texnikumuna çevrilmişdi.

Son illərdə İrəvan Pedaqoji İnstitutunda yalnız 25 tələbə qəbul edilən ədəbiyyat fakültəsi saxlanmışdı.

1914-cü il, fevralın 22-də İrəvan şəhərində Azərbaycan dilində ilk mətbu orqan – "Lək-lək" ("Leylək") adlı satirik məcmuə nəşr olunmuşdur. Bu məcmuənin cəmi 12 nömrəsi işıq üzü gördü. 1917-ci il, yanvarın 1-də işıq üzü görən "Bürhani-həqiqət" məcmuəsi isə 9-cu nömrədən sonra bağlanmışdı. Sovet hakimiyyətinin ilk illərindən etibarən İrəvanda Azərbaycan dilində "Kommunist", "Rəncbər", "Zəngi", "Qızıl Şəfəq", yenidən "Kommunist" və "Sovet Ermənistanı" qəzetləri nəşr edilirdi.

İrəvan şəhərində ilk teatr tamaşası həvəskar aktyorlar tərəfindən 1882-ci ildə göstərilmişdir. İrəvanda Azərbaycan teatrının formalaşması Yunis Nurinin adı ilə bağlıdır. Onun rəhbərliyi ilə yaradılan teatr truppası 1903-cü ildən fəaliyyət göstərmiş, ilk tamaşaları Pənah xan Makinskinin malikanəsində səhnələşdirmişdilər.

1918–1920-ci illərdə ermənilər İrəvan şəhərində kütləvi qırğınlar törətdiklərindən İrəvanın həvəskar aktyor truppası İranın Xoy şəhərinə mühacirət etmiş, üç ilə qədər orada qalmış, ara-sıra teatr tamaşaları göstərmişdir[40].

1928-ci il, mart ayının 15-də Ermənistan hökumətinin qərarı ilə səyyar tipli İrəvan Dövlət Türk Dram Teatrı yaradılmışdı.1948–1953-cü illərdə azərbaycanlıların Ermənistandan deportasiyası nəticəsində C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının fəaliyyəti dayandırılmışdı. 1967-ci ildə İrəvan Dövlət Azərbaycan Dram Teatrı 15 illik fasilədən sonra bərpa edilsə də, 1988-ci ildə ermənilər teatrın ləvazimatlarını yandırdılar. İrəvan teatrı 1989-cu ilin iyul ayından Bakıda fəaliyyətini davam etdirir.

Son illərdə Ermənistan rəhbərləri "İrəvan qalası" adı altında yeni layihə həyata keçirmək fikrinə düşüblər. İrəvanda azərbaycanlılara məxsus maddi-mədəniyyət nümunələrini tamamilə məhv edən ermənilər indi XVII–XVIII əsrlər memarlığı üslubunda inşa edilməsi nəzərdə tutulan "Sərdar sarayı"ndan, ticarət obyektlərindən, bazarlardan, karvansaralardan, Şərq hamamlarından və s. külli miqdarda gəlir əldə etmək istəyirlər. Şəhər ətrafında – keçmişdə Təzəkənd adlanan, indi isə ermənilərin "Noraqyuğ" adlandırdıqları yaşayış massivində 184 hektar ərazidə inşa edilməsi nəzərdə tutulan layihənin ilkin smeta dəyəri 6–7 milyard ABŞ dolları civarındadır. Moskva şəhərinin keçmiş meri Yuri Lujkovun İrəvana 2010-cu ilin yanvarında baş tutan səfəri zamanı erməni rəsmiləri onu şirnikləndirərək "İrəvan qalası" layihəsinin maliyyələşdirilməsi məsələsini merin və onun biznes ortaqlarının üzərinə qoymaq üçün onun razılığını almışdılar[41]. Lakin Y.Lujkov Moskvanın meri vəzifəsindən azad edildikdən sonra "İrəvan qalası" layihəsinin icrası baş tutmadı.

[40] Rəhimli İlham. İrəvan Dövlət Azərbaycan Dram Teatrı. Bakı, E.L. nəşriyyat və poliqrafiya Şirkəti MMC, 2007, s.15.

[41] Budet postroyen noviy kompleks "Yerevanskaya krepost". Qazeta "Noyev Kovcheq", №03 (150), mart 2010 goda. http://www.noev-kovcheg.ru/mag/2010-03/1973.html#ixzz3c5s3boJg.

## Nəticə / Conclusion

Azərbaycanlılara qarşı törədilən 1905–1906-cı illər kütləvi qırğınları, 1918–1920-ci illər soyqırımı, 1948–1953-cü illər və 1988–1989-cu illər deportasiyaları İrəvan şəhərinin azərbaycanlı simasını ermənilərin xeyrinə tamamilə dəyişdirdi. İrəvan şəhərindən azərbaycanlıların maddi-mədəniyyət izlərini silən, ardınca azərbaycanlı etnik kimliyini yox edərək, monoetnik erməni şəhəri yaratmağa nail olan ermənilər indi də tarix kitablarından, dərsliklərdən azərbaycanlıların izini silməyə çalışırlar.

Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev 2011-ci il, fevral ayının 10-da Goranboy rayonuna səfəri zamanı məcburi köçkünlərlə görüşündə bugünkü Ermənistan Respublikasının tarixi Azərbaycan ərazilərində yaradıldığını xüsusilə vurğulayaraq qeyd etmişdir: "Tarixdə artıq bir dəfə Azərbaycanın əzəli torpaqlarında erməni dövləti yaradılmışdır, o da bugünkü Ermənistandır. O torpaqlar bizim doğma, ata-baba torpaqlarımızdır. İrəvan xanlığı, Zəngəzur mahalı – bütün bu adlar Azərbaycan toponimləridir. Hətta indi ermənilər özləri də etiraf edirlər ki, XX əsrin əvvəllərində İrəvan şəhərinin əhalisinin əksəriyyəti azərbaycanlılar idi. Bunu təsdiq edən sənədlər var, şəkillər var, rəsm əsərləri var"[42].

Bütün qeyd olunanlar göstərir ki, erməni vandalları azərbaycanlılara məxsus maddi-mədəniyyət nümunələrinin izlərini silməyə, yaxud onları öz adlarına çıxmağa çalışsalar da, bunları tarixin yaddaşından silmək mümkün deyil. İrəvan şəhəri Azərbaycanın elm, təhsil, mədəniyyət və incəsənət mərkəzlərindən biri kimi Azərbaycan tarixində mühüm yerlərdən birini tutur.

**Məqalənin aktuallığı.** Məqalədə İrəvan şəhərinin tarixi bütövlükdə Azərbaycan tarixinin tərkib hissəsi kimi təhlil olunur. Qeyd edilir ki, ermənilərin barbar münasibəti nəticəsində İrəvanın tarixi rolu təkzib olunmuş, demək olar ki, tarix səhifələrindən silinmişdir. Bu istiqamətdə aparılan elmi araşdırmalar, eyni zamanda təhsil və pedaqoji fikir tariximizin də dərindən öyrənilməsinə xidmət edir. Bu problem bu gün də aktualdır və Azərbaycan tarixində, eləcə də onun təhsil tarixində xüsusi əhəmiyyətə malikdir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə mənbələrə və tədqiqat əsərlərinə istinadən, qədim İrəvan şəhərinin ermənilərə heç bir aidiyyəti olmadığı əsaslandırılır. Qeyd olunur ki, İrəvan şəhəri yalnız tarixi-memarlıq abidələri ilə deyil, həmçinin elm və mədəniyyət mərkəzi kimi Azərbaycan şəhərləri arasında özünəməxsus yer tuturdu. Azərbaycanlılara qarşı törədilən 1905-ci il, 1906-cı il kütləvi qırğınları, 1918–1920-ci illərin soyqırımları, 1948–1953-cü, 1988–1989-cu illərdə baş

[42] "Azərbaycan" qəzeti, 12 fevral 2011-ci il.

verən deportasiyalar İrəvan şəhərinin azərbaycanlı simasını ermənilərin xeyrinə dəyişdirdi. İrəvan şəhərindən azərbaycanlıların maddi-mədəniyyət izlərini silən, azərbaycanlı etnik kimliyini yox edərək, monoetnik erməni şəhəri yaratmağa nail olan ermənilər indi də tarix kitablarından, dərsliklərdən Azərbaycan izini silməyə çalışırlar.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalədə əksini tapmış materiallar, irəli sürülən fikirlər, ideyalar, təklif olunan tövsiyələr Azərbaycan torpağı olmuş İrəvan şəhərinin tarixinin, eyni zamanda, təhsilinin, pedaqogika tarixi problemlərinin sistemli şəkildə izah olunmasına istiqamət verir. Bu fikirlər tədris resurslarının hazırlanması üçün də əhəmiyyətlidir və ali, orta-ixtisas məktəblərində tətbiq oluna bilər.

## İstifadə olunmuş ədəbiyyat / Reference

1. Azərbaycan Respublikası Dövlət Arxivi, fond 970, siy.1, iş 1.
2. Çələbi Övliya. (1997). Səyahətnamə (Azərbaycan tarixinə aid seçmələr). Bakı, “Azərnəşr”.
3. Əfəndi Rasim. (2007). Azərbaycan incəsənəti. Bakı, “Şərq-Qərb”.
4. İrəvan xanlığı. (2010). Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı.
5. Köçərli Firudin bəy. (1981). Azərbaycan ədəbiyyatı. (iki cilddə). İkinci cild. Bakı, “Elm”.
6. Rəhimli İlham. (2007). İrəvan Dövlət Azərbaycan Dram Teatrı. Bakı, E.L.Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, s.15.
7. Şarden J. (1994). Səyahətnamə. (fransız dilindən tərcümə edən V.Aslanov). Bakı, “Elm”, 70 s.
8. Akopyan Tadevos. (1977). Ocherk istorii Yerevana. Yerevan: Izd-vo Yerevanskoqo Universiteta.
9. Alekperli F. (2008). Tisyacha i odin sekret Vostoka. (tom II). Baku, “Nurlan”, 426 s.
10. Arutyunyan N.B. (1970). Biaynili ( Urartu). Yerevan, AN Armyanskoy SSR.
11. Qazeta “Noev Kovcheg”, № 03 (150), mart, 2010 goda; www.noev-kovcheg.ru/mag/2010-03/1973.html#ixzz3c5s3boJg
12. Erivan. Sardarskiy dvorets. 1725 g. “Izvestiya Imperatorskoy Arxeologicheskoy Komissii. Vipusk 46. S.-Peterburg, 1912.
13. Miklashevckaya N. (1959). O nasledii i traditsiyax v Azerbaydzhanskom izobrazitel'nom iskusstve. V knige: Iskusstvo Azerbaydzhana. (tom VII), Baku.

14. Oganesyan K. (1951). Arin-berd (Qanli-tapa) – urartskaya krepost goroda Irpuni. Izvestiya Akademii Nauk Armyanskoy SSR, № 8.
15. Papazyan A. (1961). Arabskaya nadpis na grobnitse turkmenskix Emirov v sele Argavand. Jurnal «Blijniy i sredniy Vostok». (Sb. statey pamyati B.I. Zaxodera). Moskva.
16. Paxomov E.A. (1938). Kladi Azerbaydzhana i drugix respublik i krayov Kavkaza. Vıp. II, Baku: Izd-vo Azerbaydzhanskogo Filiala AN SSSR.
17. Piotrovskiy B.B. (1959). Vanskoe tsarstvo (Urartu). Moskva, Izd-vo Vost. Lit.
18. Razvitiye Yerevana posle prisoedineniya Vostochnoy Armenii k Rossii. (1978). Sbornik dokumentov. 1801–1917 gg. Yerevan, Izd-vo Yerevanskogo Universiteta.
19. Sbornik materialov dlya opisaniya mestnostey i plemeni Kavkaza. (1881). Tiflis, vip. I.
20. Ter-Gevondyan A.N. (1977). Armeniya i arabskiy xilafat. Yerevan, AN Armyanskoy SSR.
21. Tomas de Vaal. (2005). Cherniy sad: Armeniya i Azerbaydzhan mejdu mirom i voynoy. Moskva, tekst, s. 306.
22. Shopen İ.İ. (1852). Istoricheskiy pamyatnik sostoyaniya Armyanskoy oblasti v epoxu yeyo prisoyedineniya k Possiyskoy imperii. S-Pb.
23. Muradov V. (2011). Azerbaijani carpets. Iravan group. Baku, «Elm».
24. Frederic Dubois de Montpereux. (1839). Voyage autour du Caucase, chez les tcherkesses et les abkhases, en Georgie, en Armenie et en Crimee. Volume III, Paris.
25. Bournoutian G.A. (1992). The khanate of Erevan under Qajar rule 1795-1828. Mazda Publishers in association with Bibliotheca Persica. Costa Mesa, California and New York.
26. Sarre Friedrich. (1910). Denkmäler persischer Baukunst: geschichtliche Untersuchung und Aufnahme muhammedanischer Backsteinbauten in Vorderasien und Persien. Berlin.
27. Xaçatur Abovyan. (1958). Seçilmiş əsərləri, VIII cild, Yerevan (erməni dilində).
28. Akopyan Tadevos. (1971). Yerevanın tarixi (1500-1800). İrəvan Universitetinin nəşriyyatı, (erməni dilində).
29. Yervand Şahəziz. (1931). Qədim İrəvan. Melkony an Fondi (erməni dilində).
30. http://www.gov.am/u_files/file/kron/Armeniapr2_en.pdf.